*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 14-15 (7251-7252) ❁ Cümə, 20 fevral 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə iştirak edib




Dövlətimizin başçısı fevralın 12-də Cənub qaz dəhlizi Məşvərət Şurasının ilk iclasında nitq söyləmişdir. Cənab Prezident nitqində əvvəlcə bu görüşün təşəbbüsünə verdikləri dəyərə görə iştirakçı dövlətlərin rəhbərlərinə təşəkkürünü bildirmiş və görüşün olduqca münasib bir vaxtda—Cənub qaz dəhlizi layihəsinin praktiki olaraq həyata keçirilməsi ilində baş tutmasının mühüm əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev görüş zamanı aparılan müzakirələrin, fikir mübadiləsinin layihənin uğurla həyata keçirilməsinə töhfə verəcəyinə əminliyini bildirmişdir.

Çıxışına davam edən Prezident demişdir: "Azərbaycan dünyada neft hasil edən ilk ölkə kimi tanınır. Bu, XIX əsrin ortalarında baş verdi". Cənab Prezident daha sonra çıxışında XX yüzilliyin ortalarında Azərbaycanda dünyada dəniz neftinin işlənməsinin təməlinin qoyulduğunu, Xəzərdə əfsanəvi şəhər—Neft Daşlarının yaradılmasını, XXI əsrin əvvəllərindən isə yer üzünə artıq qaz ölkəsi kimi də səs salmasını nəzər-diqqətə çatdırdı. 2006-cı ildən Gürcüstana, 2007-ci ildən Türkiyəyə nəql olunan Azərbaycan qazını dünyaya aparan yollar uzanmaqda və şaxələnməkdədir. İndi Azərbaycan çoxsaylı tərəfdaşları ilə birlikdə Adriatik dənizinin altından keçən və İtaliyaya çatan bir dəhliz yaradır. Cənub qaz dəhlizi artıq neçə-neçə ölkəyə hərarət, rahatlıq, bərəkət, ən əsası isə təhlükəsizlik bəxş edən bir dəhlizə çevrilməkdədir. Əbəs yerə Məşvərət Şurasının iclasında Cənub qaz dəhlizi Avropanın enerji təhlükəsizliyinin təməl daşı adlandırılmamışdır.

Cənab prezident çıxışında Azərbaycanın enerji siyasətinin, o cümlədən Cənub qaz dəhlizinin indiyəqədərki tarixinə, bundan sonra bu neft və qaz sənayesi sahəsində meqalayihə ilə bağlı həyata keçiriləcək tədbirlərə, görüləcək işlərə nəzər saldı. Cənub qaz dəhlizi layihəsi Azərbaycanda son 20 il ərzində tərəfdaşlarla aparılan işə əsaslanır. 1996-cı ildə Azərbaycanda BP-nin rəhbərlik etdiyi xarici ölkələr konsersiumu arasında Şahdəniz yatağına dair saziş imzalandı. Birinci kəşfiyyat quyusu 1999-cu ilin iyun ayında tamamlandı. 1997—2001-ci illərdə Şahdənizdə qazılmış kəşfiyyat və qiymətləndirmə quyuları burada dünya səviyyəli bir qaz kondensat yatağının olduğunu təsdiqlədi.

2013-cü ildə Şahdənizin ikinci mərhələsinə dair yekun investisiya qərarı verildi. Bundan əvvəl, yəni 2011-ci ildə Azərbaycan və Avropa İttifaqı arasında Cənub qaz dəhlizi ilə bağlı birgə bəyannamə imzalandı. 2012-ci ildə Türkiyə ilə Transanadolu Qaz Boru Kəmərinə (TANAP) dair sazişə imza atıldı. 2013-cü ilin ortalarında Transadriatik Qaz Boru Kəməri (TAP) əsas ixrac marşrutu kimi seçilib. Ötən il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20 ili tamam olan gün Bakının yaxınlığındakı Səngəçal terminalında artıq XXI yüzilliyin layihəsi adını almış Cənub qaz dəhlizinin təməlqoyma mərasimi keçirildi.

Yeni meqalayihə indi müvəffəqiyyətlə irəliləyir. Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən görüşü bunu bir daha təsdiq etdi. Cənub qaz dəhlizi Şahdəniz yatağının işlənməsinin ikinci mərhələsindən əldə olunacaq ildə 16 milyard kubmetr qazın nəqlini həyata keçirəcək. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya ötürüləcək. Bir neçə seqmentdən ibarət dəhliz ümumi uzunluğu 3500 kilometrdən çox olan boru kəmərləri vasitəsilə qazın Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, Albaniyaya və İtaliyaya çatdırılmasına imkan verəcək. İlk qazın hasil edilməsi, bu qazın Gürcüstana və Türkiyəyə çatdırılması 2018-ci ilin sonunda nəzərdə tutulur. Bundan bir il sonra isə qazın Avropaya nəqli planlaşdırılıb.

Gələcəkdə "Ümid", "Abşeron" və digər yataqların da Cənub qaz dəhlizinə qovuşacağı şəksizdir. Ümumiyyətlə, Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,5 trilyard kubmetrdən çoxdur.

Ölkə başçısı çıxışının sonunda demişdir: "Əminəm ki, bu layihənin həyata keçirilməsi məqsədilə nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaq. Layihə vaxtında icra olunacaq və hamımız Cənub qaz dəhlizinin baş tutmasını qeyd edəcəyik. Lakin buna nail olmaq üçün əlaqələndirmə, qarşılıqlı etimad və bu prosesə qoşulmuş bütün ölkələr arasında sıx qarşılıqlı əlaqə lazımdır".

Cənab Prezident daha sonra isə Məşvərət Şurasının iclasında iştirak edən nazirlərə bir daha minnətdarlığını bildirmiş və iştirakçılara uğurlar arzulamışdır.

❁ ❁ ❁

Məşvərət Şurasının yığıncağında Azərbaycanın energetika naziri Natiq Əliyev, Avropa Komissiyasının enerji birliyi üzrə müavini Maros Şefçoviç, Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız, Gürcüstanın Baş nazirinin müavini Kaxa Kaladze, Yunanıstanın məhsuldar istehsal, ətraf mühit və enerji naziri Panagiotis Lafazanis, Albaniyanın energetika və sənaye naziri Damian Qjiknuri, Bolqarıstanın energetika naziri Temenujka Petkovaya, Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiqə, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell və bir sıra başqaları çıxış edərək layihənin həyata keçirilməsində Azərbaycanın xüsusi rolunu qeyd etmiş, ümumilikdə Avropa İttifaqı üçün strateji maraq doğurduğunu vurğulamışlar .

Tədbirin yekununda Cənub qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən mətbuat üçün Birgə Bəyanat imzalanmışdır.

**Nadir ATAKİŞİYEV.**